# Materiyanın mövcudluğu

written by Anar Jafarov Anar Cəfərov
Bertran Rassel (*Bertrand Russell*; 1872-1970) məşhur britaniyalı filosof, analitik fəlsəfənin yaradıcılarındandır. Onun zəngin yaradıcılığı fəlsəfənin bir çox fundamental suallarına cavab axtarışını özündə ehtiva edir. Hazırda biz Rasselin dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan *Fəlsəfənin problemləri* (*The Problems of Philosophy*) əsərini ingilis dilindən Azərbaycan dilinə tərcümə etməkdəyik. Əsər on beş fəsildən ibarətdir ki, onların da hər biri mühüm bir fəlsəfəsi mövzuya həsr edilmişdir. Tərcüməmizin ikinci hissəsini aşağıda oxuya bilərsiniz.

Dr. Anar Cəfərov

Bu fəsildə özümüzə sual etməliyik ki, ümumiyyətlə, hər hansı bir mənada materiya deyilən bir şey varmı? Müəyyən daxili təbiətə malik stol varmı və mən ona baxmadıqda o, mövcud olmağa davam edirmi? Yoxsa olmaya, stol sadəcə mənim təxəyyülümün məhsulu, çox uzun bir yuxuda gördüyüm yuxu-stoldur? Bu sual böyük əhəmiyyətə malikdir. Əgər obyektlərin müstəqil mövcudluğuna əmin ola bilməsək, başqa insanların bədənlərinin mövcudluğuna da əmin ola bilmərik; və daha pisi, bu səbəbdən insanların zehinlərinin mövcudluğuna əmin ola bilmərik, çünki bizim onların bədənlərini müşahidə edərək zehinlərinin olmasını nəticə çıxarmaqdan başqa yolumuz yoxdur. Deməli, əgər biz obyektlərin müstəqil mövcudluğuna əmin ola bilməsək, səhrada tək buraxılmış qalacağıq – ola bilər ki, bütövlükdə xarici dünya yuxudan başqa bir şey deyil və biz yalnız mövcuduq. Bu, narahatlıq doğuran bir mümkünlükdür; ancaq baxmayaraq ki, onun yanlış olduğu ciddi şəkildə *sübut* edilə bilməz, onun doğruluğunu güman etməyə kiçicik əsas da yoxdur. Bu fəsildə baxmalıyıq ki, bu, nəyə görə belədir.

Şübhəli məsələlərə keçməmişdən əvvəl başlanğıc üçün gəlin, az

və ya çox sabit olan məqamları tapmağa çalışaq. Stolun fiziki mövcudluğuna şübhə etməyimizə baxmayaraq, bizi stolun varlığını düşünməyə vadar edən hissi verilənlərin mövcudluğuna şübhə edə bilmərik; biz şübhə etmirik ki, baxdıqda bizə müəyyən rəng və forma təzahür olur və nəyisə sıxdıqda müəyyən bərklik hissi yaşayırıq. Bütün bu psixoloji nəsnələri biz sual altına almırıq. Əslində, nə də şübhəli olsa, birbaşa yaşantılarımızın ən azı bir hissəsi tamamilə qəti görsənir.

Müasir fəlsəfənin banisi Dekart (1596-1650) elə bir metod ixtira edib ki, indi də faydalı olaraq istifadə oluna bilər – sistematik şübhə metodu. O, qərara aldı ki, tam aydın və ayrıca olaraq doğru görmədiyi heç nəyə inanmayacaq. Nəyi ki, şübhə altına sala bilər, şübhələnməməyə əsas görməyincə ona şübhə edəcək. Bu metodu tətbiq etməklə o, tədricən əmin olmağa başladı ki, mövcudluğuna *tam* əmin ola biləcəyi yeganə nəsnə o, özüdür. O, daimi fantazmaqoriyada onun hisslərinə qeyri-real şeyləri təqdim edən yalançı iblis təxəyyül edirdi; belə bir iblisin mövcudluğuna ehtimal olmaya bilər, ancaq yenə də bu, mümkündür və ona görə hisslərlə qavranılan şeylərdən də şübhələnmək mümkündür.

Hərçənd, onun öz mövcudluğuna şübhələnməsi mümkün deyil, çünki o, mövcud olmasaydı, heç bir iblis onu aldada bilməzdi. O, şübhələnirsə, mövcud olmalıdır; hər hansı yaşantıya malikdirsə, mövcud olmalıdır. Beləliklə, öz mövcudluğu onun üçün tam qətidir. O, “Düşünürəmsə, deməli, varam” (*Cogito, ergo sum*) deyir. Bu qətilik əsasında şübhələri ilə dağıtdığı bilik dünyasını yenidən qurmağa başlayır. Şübhə metodunu ixtira etməklə və subyektiv şeylərin ən qəti şeylər olduğunu göstərməklə, Dekart fəlsəfəyə böyük bir xidmət göstərmiş olur ki, bu da bu sahəni öyrənən hamıya hələ də faydalıdır.

Bununla belə, Dekart metodundan istifadə zamanı bir qədər diqqətli olmağa ehtiyac var. “Düşünürəmsə, deməli, varam” şəksiz qəti olandan daha artığını deyir. Elə görünə bilər ki, dünənki kimi bu gün də eyni şəxs olmağımızdan tam əminik və bu, şübhəsiz ki, müəyyən mənada doğrudur. Ancaq şəxsin gerçək

‘Mən’inə gerçək stol kimi çatmaq çətindir və görünmür ki, o, ayrı-ayrı yaşantılara məxsus olan mütləq və inandırıcı qətiliyə malik olsun. Stoluma baxdıqda və müəyyən qəhvəyi rəng gördükdə tam qəti olan şey “*Mən* qəhvəyi rəng görürəm” deyil, “qəhvəyi rəng görülür”dür. Əlbəttə, bu, qəhvəyi rəngi görən nəyəsə və ya kiməsə aiddir; ancaq buradan ‘Mən’ adlandırdığımız az və ya çox dərəcədə daimi bir şəxsin mövcudluğu nəticəsi çıxmır. Birbaşa qətiliyə aid olduğu qədərilə, ola bilsin ki, qəhvəyi rəngi görən nəsnə tamamilə anidir və növbəti anda hansısa fərqli yaşantıya malik olanla eyni deyil.

Beləliklə, ibtidai qətiliyə malik olan bizim ayrı-ayrı fikirlərimiz və hisslərimizdir. Və bu, normal qavrayışlara aid olduğu kimi yuxularımıza və hallüsinasiyalarımıza da aiddir: yuxu və ya kabus görəndə biz şübhəsiz olaraq malik olduğumuzu düşündüyümüz duyğulara malikik; hərçənd, müxtəlif səbəblərdən belə düşünülür ki, bu duyğulara heç bir fiziki obyekt uyğun gəlmir. Beləliklə, öz yaşantılarımız haqqındakı biliklərimizin qətiliyi heç bir halda istisna hallara icazə vermək üçün məhdudlaşdırılmamalıdır. Deməli, buradan bilik axtarışımızı başlaya biləcəyimiz möhkəm əsasa malikik.

Nəzərdən keçirməli olduğumuz problem budur: qəbul etsək ki, öz hissi verilənlərimizdən qəti əminik, onu fiziki nəsnə adlandıra biləcəyimiz başqa nəyinsə mövcudluğunun nişanəsi hesab etməyə hansısa əsasımız varmı? Stolla təbii olaraq əlaqəli hesab edəsi olduğumuz hissi verilənləri saymış olsaydıq, stol haqqında deyiləsi hər şeyi demiş olardıqmı? Yoxsa, hissi verilən olmayan, biz otaqdan çıxdıqdan sonra qalmağa davam edən yenə nəsə var? Adi düşüncə tərəddüd etmədən cavab verir ki, var. Alına, satıla, ora-bura çəkilə, üstünə süfrə sərilə və s. edilə bilən şey *sadəcə* hissi verilənlərin məcmusu ola bilməz. Əgər örtük stolu tamam gizlədirsə, biz stoldan hissi verilən əldə etməyəcəyik və ona görə də, əgər stol yalnız hissi verilən olsaydı, onun mövcudluğu dayanmış olardı və örtük möcüzəvi şəkildə stolun əvvəlki yerində durmaqla boş havadan asılı qalardı. Bu, tamamilə absurd

görünür. Ancaq filosof olmaq istəyən absurdluqlardan qorxmamağı öyrənməlidir.

Hissi verilənlərdən əlavə fiziki obyektin mövcudluğuna ehtiyac hiss etməyimizin bir böyük səbəbi budur ki, biz müxtəlif insanlar üçün *eyni* obyektin olmasını istəyirik. On nəfər nahar stolunun ətrafında oturan zaman onların eyni stol örtüyünü, eyni bıçaq, çəngəl, qaşıq və stəkanları görmədiyini söyləmək cəfəng olar. Ancaq hissi verilənlər hər ayrıca insan üçün fərdidir; birinin görməsinə birbaşa verilən başqasına birbaşa verilmir: onların hamısı şeyləri bir qədər fərqli baxış bucağından və bu səbəbdən də bir qədər fərqli görürlər. Deməli, əgər çoxlu sayda müxtəlif insan tərəfindən müəyyən mənada bilinə bilən publik neytral obyektlər olmalıdırsa, müxtəlif insanlara təzahür olan fərdi və məxsusi hissi verilənlərdən əlavə də nəsə olmalıdır. Bəs, belə publik neytral obyektlərin olmağına inanmaq üçün hansı əsaslarımız var?

Ağıla təbii olaraq ilk gələn cavab odur ki, müxtəlif insanların stolu bir qədər fərqli görə bilmələrinə baxmayaraq, stola baxdıqda onların hamısı yenə də az və ya çox dərəcədə oxşar şeylər görürlər; və onların gördüklərindəki fərqliliklər perspektiv və işığın əks olunması qanunlarından asılıdır ki, beləliklə, müxtəlif insanların hissi verilənlərinin əsasında dayanan daimi obyektə asanlıqla gəlib çıxmaq olar. Stolumu məndən əvvəl otağımda qalandan almışam; mən onun hissi verilənlərini ala bilməzdim. Onun hissi verilənləri o getdikdən sonra yox olmuşdur, ancaq mən az və ya çox dərəcədə oxşar hissi verilənlər gözləntisi ala bilərdim və almışam da. Demək, bu, bir faktdır ki, müxtəlif insanlar oxşar hissi verilənlərə malikdirlər və müəyyən bir yerdə müxtəlif vaxtda olan insanın oxşar hissi verilənləri var. Bu, bizi sövq edir, güman edək ki, hissi verilənlərdən savayı müxtəlif vaxtlarda müxtəlif insanların hissi verilənlərinin əsasında dayanan və ya onlara səbəb olan daimi publik obyekt var.

Yuxarıdakı fikirlərin *bizdən başqa digər insanlar da var*

gümanından asılı olması səbəbindən yenə də əvvəlki suala qayıtmış oluruq. Digər insanlar mənə onları görmə və ya səslərini eşitmə kimi müəyyən hissi verilənlər vasitəsilə verilir; və əgər mənim hissi verilənlərimdən asılı olmayan fiziki obyektlərə inanmağa əsasım yoxdursa, təxəyyülümdən kənar digər insanların olmağına inanmağa da əsasım olmayacaqdır. Beləliklə, öz hissi verilənlərimizdən asılı olmayan obyektlərin mövcud olmalı olduğunu göstərməyə çalışan zaman digər insanların şahidliklərinə əsaslana bilmərik, çünki bu şahidliyin özü də hissi verilənlərdən təşkil olunub və hissi verilənlər bizdən müstəqil mövcud olan şeylərin nişanəsi olmayınca, onlar digər insanların yaşantılarını aşkarlaya bilməz. Ona görə də biz, mümkünsə, xalis olaraq fərdi yaşantılarımızda elə xüsusiyyətlər tapmalıyıq ki, bizdən və fərdi yaşantılarımızdan başqa dünyada şeylərin olduğunu göstərsin və ya ən azı buna işarə versin.

Müəyyən mənada qəbul edilməlidir ki, biz özümüzdən və yaşantılarımızdan başqa heç zaman şeylərin mövcudluğunu *sübut* edə bilmərik. *Dünya məndən və mənim fikir, hiss və duyğularımdan ibarətdir, qalan hər şey isə fantaziyadır* – fərziyyəsindən heç bir məntiqi absurdluq hasil olmur. Yuxularda çox mürəkkəb bir dünya mövcud kimi görünə bilər, ancaq yuxudan ayıldıqda məlum olur ki, bu, yanılma imiş; yəni aşkar edirik ki, yuxudakı hissi verilənlər adətən onlardan nəticə olaraq çıxardığımız fiziki obyektlərə uyğun görsənmir. (Doğrudur ki, fiziki dünyanın mövcudluğu güman edildikdə yuxulardakı hissi verilənlərin fiziki səbəblərini tapmaq mümkündür: məsələn, qapının çırpılması yuxuda dəniz döyüşü görməyimizə səbəb ola bilər. Hərçənd, bu halda da hissi verilənlər üçün fiziki bir *səbəb* varsa belə, onlara uyğun bir fiziki obyekt – gerçək bir dəniz döyüşündə olduğu kimi – mövcud deyil.) *Bütövlükdə həyat və ona aid bütün obyektlər özümüzün yaratdığı bir yuxudur* düşüncəsi məntiqi olaraq qeyri-mümkün deyil. Ancaq məntiqi baxımdan qeyri-mümkün olmamasına baxmayaraq, onun doğru olduğunu düşünməyə də heç bir əsas yoxdur. Və bu, əslində, ona öz həyatımızın faktlarını izah

etməyə vasitə kimi baxdıqda daha az dərəcədə sadə fərziyyədir, nəinki bizdən asılı olmayan, təsirləri ilə duyğularımızın yaranmasına səbəb olan obyektlərin həqiqətən də mövcud olması fərziyyəsi.

Fiziki obyektlərin həqiqətən var olmasını güman etməyin məsələni necə sadələşdirdiyini asanlıqla görmək olur. Pişik müəyyən bir anda otağın bir hissəsində, digər anda isə digər hissəsində görünürsə, güman etmək təbiidir ki, o, bir sıra aralıq yerlərdən keçərək bir tərəfdən digər tərəfə hərəkət etmişdir. Ancaq əgər pişik yalnızca hissi verilənlər çoxluğudursa, o, mən görmədiyim hansısa bir yerdə heç zaman ola bilməzdi; deməli, biz güman etməli olacağıq ki, mən baxmadıqca o, ümumiyyətlə, mövcud olmayıb, birdən-birə yeni bir yerdə üzə çıxıb. Əgər pişik görüb-görməməyimdən asılı olmayaraq mövcuddursa, öz yaşantılarımız əsasında başa düşə bilərik ki, bir yeməkdən digərinə qədər müddətdə o, necə acır; ancaq əgər o, mən onu görmədikdə mövcud olmursa, qeyri-mövcudluğu ərzində mövcudluqdakı kimi aclığının güclənməsi qəribə görünər. Və əgər pişik yalnız hissi verilənlərdən ibarətdirsə, o, *ac* ola bilməz, çünki öz aclığımdan başqa heç bir aclıq mənim üçün hissi verilən ola bilməz. Deməli, pişiyi mənə inikas etdirən hissi verilənlərin davranışı, əgər onu aclığın ifadəsi kimi nəzərdən keçirirəmsə, tam təbii görünür, amma onu rəng parçalarının hərəkəti və dəyişilməsi kimi nəzərdən keçirirəmsə, tamamilə izahedilməz olur; belə ki, rəng parçalarının hərəkətinin və dəyişilməsinin aclıq hiss edə bilməsi üçbucağın futbol oynaya bilməsi kimi mümkünsüzdür.

Ancaq pişik misalındakı çətinlik insanlarla bağlı misalla müqayisədə heç nədir. İnsanlar danışdıqda – yəni ideayalarla assosiasiya etdiyimiz müəyyən səsləri eşitdikdə və eyni anda dodaqların müəyyən hərəkətlərini və sifət ifadələrini gördükdə – eşitdiyimizin bir fikir ifadəsi olmadığını güman etmək çox çətindir, çünki bilirik ki, eyni səsləri biz çıxarsaydıq, elə olardı. Əlbəttə, eyni şeylər digər insanların mövcudluğuna səhvən inandığımız yuxularda baş verir. Hərçənd, yuxulara az və ya çox dərəcədə oyaq həyat adlandırdığımız nəsnə təsir edir

və o, fiziki dünyanın həqiqətən var olduğunu güman etsək, az və ya çox dərəcədə elmi prinsiplərlə izah edilə bilir. Demək, hər bir sadəlik prinsipi bu təbii mövqeni qəbul etməyimizi tələb edir ki, həqiqətən də bizdən və hissi verilənlərimizdən başqa qavrayışımızdan asılı olmadan mövcud olan obyektlər var.

Əlbəttə, müstəqil xarici dünyanın mövcudluğu inamına əsasən arqument vasitəsilə gəlib çıxmırıq. Bu inamı biz düşünməyə başlayan kimi özümüzdə hazır tapırıq: bu, *instinktiv* inam da adlandırıla bilər. Biz heç bir zaman bu inamı sual altına almazdıq, əgər, ən azı görmədə, hissi verilənlərin müstəqil obyekt olmasına inanırmış kimi görsənməsəydik; hərçənd, arqument göstərir ki, obyekt hissi verilənlərlə eyni ola bilməz. Ancaq bu tapıntı – hansı ki, dadma, iyləmə və eşitmədə o qədər də paradoksal deyil, yalnız toxunmada bir az paradoksaldır – bizim *hissi verilənlərimizə uyğun obyektlər vardır* instinktiv inamımızın əhəmiyyətini azaltmır. Çünki bu inam heç bir çətinlik yaratmır, əksinə yaşantılarımıza verdiyimiz izahı sadələşdirməyə və sistemləşdirməyə kömək olur; göründüyü qədər, onu rədd etməyə yaxşı əsas yoxdur. Bu səbəbdən, yuxularımıza görə ortaya çıxan yüngül şübhə ilə olsa da, qəbul edə bilərik ki, xarici dünya həqiqətən də mövcuddur və mövcudluğuna görə onu davamlı olaraq qavramağımızdan tam asılı deyil.

Bizi bu nəticəyə gətirib çıxaran arqument, şübhəsiz, arzu etdiyimizdən daha az güclüdür, ancaq o, bir çox digər fəlsəfi arqumentlər kimidir və bu səbəbdən onun ümumi xüsusiyyətini və düzgünlüyünü qısaca nəzərdən keçirməyə dəyər. Biz aşkarladıq ki, bütün biliklər instinktiv inamlar üzərində qurulmalıdır və əgər bunlardan imtina edilsə, yerdə heç nə qalmaz. Ancaq instinktiv inamlarımız arasında bəziləri digərlərindən daha güclüdür, bəziləri isə vərdiş və assosiasiya vasitəsilə digər inamlara calanmışdır və əslində instinktiv deyil – onlar haqqında yanlış olaraq instinktiv inanılanın hissəsi olduğu güman edilir.

Fəlsəfə instinktiv inamlarımızın iyerarxiyasını bizə ən çox

inandıqlarımızdan başlayaraq, onların hər birini mümkün qədər ayrıca və qeyri-relevant əlavələr olmadan təqdim etməklə göstərməlidir. O, göstərməlidir ki, nəhayətdə təqdim edildikləri şəkildə, bizim instinktiv inamlarımız bir-biri ilə toqquşmur, əksinə harmonik sistem formasındadır. Digərləri ilə toqquşduğu hal istisna olmaqla, bir instinktiv inamdan imtina etməyə heç vaxt əsas ola bilməz. Beləliklə, əgər onların harmoniya yaratdığı aşkarlanırsa, onda bütün sistemi qəbul etməyə dəyər.

Əlbəttə, mümkündür ki, bütün inamlarımız yanlış olsun və bu səbəbdən onların hamısına qarşı ən azı yüngül şübhəmiz olmalıdır. Ancaq başqa inam bizə əsas vermədən bir inamdan imtina etməyə səbəbimiz ola bilməz. Deməli, instinktiv inamlarımızı ardıcıllıqla nizamlamaqla, onlardan hansının daha mümkün olduğunu nəzərdən keçirməklə, zəruri olan halda onları dəyişdirmək və ya rədd etməklə və yalnız instinktiv olaraq inandıqlarımızı verilənlər kimi qəbul etmək əsasında biz biliklərimizin nizamlı və sistematik təşkilini əldə edə bilərik. Bu halda da səhv etmək *imkanının* qalmasına baxmayaraq, bilik hissələrinin bir-birilə qarşılıqlı əlaqəsi və tənqidi araşdırma bunun baş vermə ehtimalını aşağı salır.

Fəlsəfə ən azı bu funksiyanı yerinə yetirə bilər. Əksər filosoflar, düz və ya səhv, inanırlar ki, fəlsəfə bundan da artığını edə bilər – bütöv olaraq dünya və fundamental gerçəkliyin təbiəti ilə bağlı bizə başqa cür əldə edilə bilməyəcək bilik verə bilər. Belə olub-olmamasından asılı olmayaraq, haqqında danışdığımız daha mötədil funksiya fəlsəfə tərəfindən şübhəsiz icra oluna bilər və bu, əlbəttə, sağlam düşüncənin adekvatlığına bir dəfə şübhə etməyə başlamışlar üçün fəlsəfi problemlərə aid ağır və çətin əməyə bəraət qazandırmaq üçün kifayət edir.

**Tərcümənin birinci hissəsi:**

https://bakuresearchinstitute.org/az/tezahur-ve-gerceklik/